<u>AZƏRBAYCAN RESPUBLİKASI HESABLAMA PALATASI</u>

# İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının

# R Ə Y İ

BAKI - 2021

## MÜNDƏRİCAT


| | | Səh. |
|---|---|---|
| | Ümumi müddəalar | 3 |
| I Bölmə. | "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin ümumi xarakteristikası | 5 |
| II Bölmə. | İşsizlikdən sığorta fondunun gəlirləri | 10 |
| III Bölmə. | İşsizlikdən sığorta fondunun xərcləri | 16 |
| IV Bölmə. | Tövsiyələr | 27 |

## ÜMUMİ MÜDDƏALAR

İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi layihəsinə (Qanun layihəsi) Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi (Rəy) "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununun 6.0.2-ci, 7.0.1-ci və 24-cü maddələrinə, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 27.7-ci maddəsinə müvafiq olaraq hazırlanmışdır.

Rəyin məqsədi İşsizlikdən sığorta fondunun (Fond) vəzifə və funksiyaların həyata keçirilməsini təmin edəcək gəlir və xərc istiqamətləri üzrə proqnoz göstəricilərin əsaslılığının, həmçinin aidiyyəti sahədə nəzərdə tutulmuş prioritet istiqamətlərə uyğunluğunun, Qanun layihəsinin tərtibi və təqdim edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblərə əməl edilməsi vəziyyətinin qiymətləndirilməsindən ibarətdir.

Rəyin hazırlanması zamanı INTOSAI P1 – Lima Bəyannaməsinin (Auditin Təməl Prinsipləri Bəyannaməsi) 2-ci maddəsi nəzərə alınmışdır.

Rəydə Fondun gəlir mənbələri, həmçinin xərclərin ayrı-ayrı istiqamətləri üzrə təhlillər aparılmış, əldə edilmiş nəticələrə əsaslanmaqla bu istiqamətdə fəaliyyətin qiymətləndirilməsi həyata keçirilmişdir.

Rəyin məlumat bazası kimi "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi ilə birgə təqdim edilmiş məlumat və göstəricilər, "İşsizlikdən sığorta fondunun 2021-cİ il büdcəsi haqqında" 2020-ci il 29 dekabr tarixli 235-VİQ nömrəli Azərbaycan Respublikasının Qanunu, Qanun layihəsinə dair izahat (İzahat), Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin (Agentlik) hesabat və məlumatları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları çıxış etmiş, həmçinin Azərbaycan Respublikası Hesablama Palatasının müvafiq analitik məlumat bazasından istifadə edilmişdir.

Gəlir və xərclərin ayrı-ayrı istiqamətlərini əhatə etməklə müxtəlif tədqiqat metodları tətbiq olunmuş, təhlillər Fondun gəlirlərinin mənbələr üzrə formalaşması, həmçinin xərclərinin istiqamətlər üzrə maliyyələşdirilməsində mövcud risklərin qiymətləndirilməsi əsasında aparılmışdır.

İzahata daxil edilmiş məlumatların ümumi xarakterə malik olması, cari vəziyyətin və nəzərdə tutulmuş tədbirlərin gözlənilən nəticələrinin qiymətləndirilməsi üçün relevant məlumatların ətraflı və tam təqdim olunmaması diqqətə alınaraq "Proqnoz maliyyə

məlumatlarının yoxlanılması” (Əminlik təmin edən məsələlər üzrə beynəlxalq standart – 3400) standartından istifadə olunmuş, Hesablama Palatasının rəyi təqdim edilmiş göstəricilərə dair məhdud əminlik əsasında formalaşdırılmışdır.

Rəy “Ümumi müddəalar”dan, “İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun layihəsinin ümumi xarakteristikası, “İşsizlikdən sığorta fondunun gəlirləri”, “İşsizlikdən sığorta fondunun xərcləri” bölmələrindən ibarət olmaqla tərtib edilmiş, həmçinin nəticələr əsasında hazırlanmış tövsiyələr Rəydə əks olunmuşdur.

## I BÖLMƏ.“İŞSİZLİKDƏN SIĞORTA FONDUNUN 2022-Cİ İL BÜDCƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN LAYİHƏSİNİN ÜMUMİ XARAKTERİSTİKASI

Qanun layihəsi 5 maddədən ibarət olmaqla tərtib edilmişdir. Layihəyə əsasən İşsizlikdən sığorta fondunun 2022-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 180,4 mln. manat məbləğində proqnozlaşdırılmışdır *(maddə 1).*

Qanun layihəsində növbəti ildə Fondun gəlirlərinin formalaşma mənbələri *(maddə 2)* və xərclərinin istiqamətləri *(maddə 3)* əks etdirilmişdir.

Qanun layihəsinin *4-cü maddəsində* Fondun istifadə olunmamış vəsaitlərinin növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilməsi öz əksini tapmışdır.

Qanun layihəsinin *5-ci maddəsində* onun 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minməsi göstərilmişdir.

**1.1. Qanun layihəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununa və digər normativ-hüquqi aktlar üzrə tələblərə riayət edilməklə və növbəti ilin dövlət büdcəsinin müvafiq göstəricilərinə uyğun tərtib edilmişdir.**

Fondun 2022-ci il üzrə büdcəsinə dair Qanun layihəsi, həmçinin müvafiq izahat “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 12.1.10-cu maddəsində nəzərdə tutulan qaydada dövlət büdcəsinin layihəsi ilə birlikdə hazırlanan və təqdim olunan sənədlərə (“Büdcə zərfi”nə) daxil edilmişdir.

Qanun layihəsi ilə birlikdə Fondun gəlirləri və xərcləri üzrə 2021-ci ilin gözlənilən icra, 2022-ilin proqnoz göstəriciləri də Hesablama Palatasına təqdim edilmişdir..

Qanunun 27.1-ci maddəsinə əsasən dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsi müvafiq icra hakimiyyəti orqanı və büdcədənkənar dövlət fondları tərəfindən birgə hazırlanmış və təsdiq olunmuş tədbirlər planı vasitəsilə həyata keçirilir. Tədbirlər planı mətbuatda dərc edilir.

Plana müvafiq olaraq Fondun büdcəsinin tərtibi (1-ci bölmə), Fondun büdcəsinin tərtibi prosesi üzrə müzakirələrin yekunlaşdırılması (3-cü bölmə), Fondun büdcəsinin icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsi (4-cü bölmə) təmin olunmuşdur**.**

Qeyd edilməlidir ki, Fondun büdcəsinin icra səviyyəsinin qarşılıqlı uzlaşdırılması və əlaqələndirilməsi, eləcə də paralel nəzarətin təşkili baxımından Fondun büdcəsinin icrası vəziyyətinin dövlət büdcəsi kimi Milli Məclisə təqdim edilməməsi və Milli Məclis tərəfindən

baxılaraq təsdiq olunmaması dövlətin maliyyə vəsaitlərinə, həmçinin dövlət maliyyəsinə tam parlament nəzarətinin təmin olunmasında risk olaraq qiymətləndirilməlidir.

**1.2. Qanun layihəsi "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"na və "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"na uyğun şəkildə tərtib edilmişdir.**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən işsizlikdən sosial müdafiəsinin təmin edilməsində xüsusi əhəmiyyətə malikdir. Strateji yol xəritələrinin icrası çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr, 2020-ci il 13 fevral tarixli 602 və 1816 nömrəli Sərəncamları ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" və "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. "Azərbaycan Respublikasının Milli İqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə 2025-ci ilədək daha 450 min nəfərin məşğulluğunun təmin edilməsi nəzərdə tutulmuş, Strategiyada aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsinə, səmərəliliyinin artırılmasına, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsinə xüsusi önəm verilmişdir.

İşsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, peşə standartlarının hazırlanması və tətbiqi, işsizlikdən sığorta sisteminin əhatə dairəsinin genişləndirilməsi, peşəyönümü sisteminin daha səmərəli təşkili, əlilliyi olan şəxslərin məşğulluğu, əmək standartlarının yüksəldilməsi, işəgötürənlərin kadr hazırlığında iştirakını stimullaşdırmaq üçün müvafiq normativ hüquqi bazanın və iqtisadi həvəsləndirmə mexanizmlərinin yaradılması, iş yerlərində əmək standartları üzrə minimum normaların (tələblərin) təmin edilməsinə nəzarətin artırılması, aktiv məşğulluq tədbirlərinin səmərəliliyinin artırılması, mikro, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, məşğulluq orqanlarında peşəyönümlü tədbirlərinin, iş klublarının, səyyar əmək yarmarkalarının və qısamüddətli peşə hazırlığı kurslarının təşkili, peşə təhsili müəssisələrinin, o cümlədən işsiz və işaxtaran vətəndaşlar üçün regional peşə tədrisi mərkəzi şəbəkəsinin genişləndirilməsi və s. Strategiyanın prioritet istiqamətləri kimi müəyyən olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 1816 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–

2025-ci illər üçün Tədbirlər Planı"da, həmçinin əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsi, sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması istiqamətində həyata keçirilməli olan tədbirlər müəyyən edilmişdir.

Qanun layihəsində əks etdirilmiş Fondun xərc istiqamətləri yuxarıda qeyd edilən hüquqi aktlarda müəyyən olunmuş istiqamətlərlə uyğunluq təşkil edir.

**1.3. Fondun növbəti ilin büdcəsi ilə bağlı Qanun layihəsində gəlirlərin strukturu və xərclər üzrə nəzərdə tutulmuş parametrlər "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş mənbələrə və istiqamətlərə, əsasən, uyğundur.**

Fondun növbəti ilin büdcəsi ilə bağlı Qanun layihəsində gəlirlərin və xərclərin strukturu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən işsizlikdən sığorta vəsaitləri müəyyən olunmuş qaydada ödənilən sığorta haqlarından, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalara görə tətbiq olunan inzibati cərimələrdən daxilolmalardan, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən qrantlardan, ianə və yardımlardan, bank kreditlərindən, qanunla və Azərbaycan Respublikası Prezidenti tərəfindən nəzərdə tutulan digər mənbələrdən formalaşır. Qeyd etməliyik ki, Qanun layihəsində əks olunmuş daxilolma mənbələrinə qanunvericiliklə müəyyən olunmuş istiqamətlərdən kənar mənbələr aid edilməmişdir.

Bununla yanaşı, Hesablama Palatasına təqdim edilən məlumatlara əsaslanmaqla, Fondun gəlirlərində sığorta haqları və əvvəlki ilin sonuna Fondun istifadə olunmamış vəsait qalığı istisna olmaqla "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunun 21-ci maddəsində göstərilən bir sıra daxilolmaların sair gəlirlər kimi Qanun layihəsində əks etdirildiyi qeyd olunmalıdır.

Qanun layihəsində əks etdirilmiş Fondun xərc istiqamətləri "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunun 19-cu maddəsinin tələblərinə uyğundur.

**1.4. Qanun layihəsində xərc parametrləri üzrə qeyd edilmiş parametrlər 2022-ci il üçün dövlət büdcəsinin və Dövlət Sosial Müdafiə Fondunun büdcələrində göstərilmiş göstəricilərə uyğundur.**

Növbəti ildə büdcə xərclərinin iqtisadi təsnifatının "Əməkhaqqı" (211000) köməkçi bölməsi üzrə büdcə təşkilatları üzrə əmək haqqının 2020-cİ ildə 5072,6 mln. manat icra edildiyi, 2021-ci ildə 5193,0 mln. manat olması gözlənilməklə 2022-ci ildə 6477,0 mln. manat olacağı proqnozlaşdırılmışdır. Büdcə təşkilatları üzrə Fonda ayırmaların məbləğinin isə büdcə xərclərinin iqtisadi təsnifatının "Əməkhaqqına ayırmalar" (212000) köməkçi bölməsi üzrə 2021-ci ildə 1276,8 mln. manat gözlənildiyi, 2022-ci ildə 1620,3 mln. manat məbləğində proqnozlaşdırıldığı sənədlərdə əks olunmuşdur.

"İşsizlikdən sığorta" (212400) paraqrafı üzrə olmaqla dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən məcburi dövlət sosial sığorta haqqı kimi cari ildə 15,5 mln. manat vəsaitin xərc edilməsi gözlənildiyi, növbəti ildə bu istiqamət üzrə xərc ediləcək vəsaitin 19,5 mln. manat olacağı proqnozlaşdırılır.

Qanun layihəsində isə büdcə təşkilatları üzrə Fonda daxilolmalar isə növbəti il üçün 21,7 mln. manat məbləğində nəzərdə tutulmuşdur. Beləliklə, dövlət büdcəsinin müvafiq xərc maddəsində proqnozlaşdırılmış 19,5 mln. manat məbləğində vəsaitlə müqayisədə 2,2 mln. manat fərq məbləği nəzərdə tutulmuşdur. İzahatda qeyd edilənlə bağlı əlavə məlumat əks etdirilməsə də, Hesablama Palatası bu fərqin dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatının digər bölmələrindən bəzi qurumlara ayrılan vəsaitlər hesabına həyata keçirilən fəaliyyətlər zamanı əməyin ödənilməsinə də vəsaitin ayrılması ilə əlaqəli olduğu qənaətindədir.

"Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda büdcədən maliyyələşən təşkilatlar üzrə gəlirləri 1345,5 mln. manat məbləğində təsdiq edilmişdir. Həmin təşkilatlarda işləyənlərin əmək haqqı fondunun 2022-ci ildə cari illə müqayisədə 1187,3 mln. manat və 22,5% artırılaraq 6476,9 mln. manata çatdırılması nəticəsində sığorta gəlirləri 1677,4 mln. manat və ya cari ilə nisbətən 331,9 mln. manat və ya 24,7% çox olması proqnozlaşdırılır.

Qüvvədə olan qanunvericiliyə əsasən məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslərin əhatə dairəsi işsizlikdən sığorta haqqının ödənilməsinə cəlb olunan şəxslərdən daha geniş olması fonunda Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 24,7%, Fondun gəlirlərinin isə 29,2% artımla proqnozlaşdırılmışdır.

**1.5. Qanun layihəsi işsiz şəxslərin sosial müdafiəsi baxımından "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunun müəyyən etdiyi istiqamətlərə, əsasən, uyğundur.**

Məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsasları, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatları "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qanun layihəsinin xərc istiqamətləri bilavasitə işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin təmin edilməsinə yönəldiyinə görə onu "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tərtib olunmuş hesab etmək olar.

## II BÖLMƏ. İŞSİZLİKDƏN SIĞORTA FONDUNUN GƏLİRLƏRİ

**2.1. Növbəti ildə də fondun gəlirlərində nəzərdə tutulmuş artım işsizlikdən sığorta haqları üzrə daxilolmalardakı artım hesabına baş verəcəkdir.**

Qanun layihəsinə əsasən 2022-ci ildə Fondun gəlirləri 180,4 mln. manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da Fondun 2021-ci il üçün təsdiq edilmiş gəlirləri ilə müqayisədə 22,6 mln. manat və ya 14,3% çoxdur (Cədvəl 1).

**Cədvəl 1. Fondun gəlirləri ilə bağlı məlumat (min manatla)**

| Sıra sayı | Gəlirlər mənbələri | 2020 | | 2021 | 2022 | | |
|---|---|---|---|---|---|---|---|
| | | proqnoz | icra | proqnoz | proqnoz | müqayisə | |
| | | | | | | 2020-ci ilin proqnozu ilə | 2021-ci ilin proqnozu ilə |
| 1 | **İşsizlikdən sığorta haqqı** | **111869,6** | **133622,0** | **119999,9** | **136418,4** | **24548,8** | **16418,5** |
| 1.1 | **büdcədən maliyyələşən təşkilatlar üzrə** | 17662,9 | 17219,0 | 16771,5 | 21709,2 | 4046,3 | 4937,7 |
| 1.2 | **büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə** | 17662,9 | 17219,0 | 16771,5 | 21709,2 | 4046,3 | 4937,7 |
| 1.3 | **qeyri-büdcə sektoru üzrə** | 76543,8 | 99184,0 | 86456,9 | 93000,0 | 16456,2 | 6543,1 |
| 2 | **Sair gəlirlər** | 30,0 | 708,2 | 30,0 | 50,0 | 20,0 | 20,0 |
| 3 | **Əvvəlki ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti** | 39335,8 | 39335,8 | 37739,2 | 43907,1 | 4571,3 | 6167,9 |
| ***Cəmi*** | | ***151235,4*** | ***173666,0*** | ***157769,1*** | ***180375,5*** | ***29140,1*** | ***22606,4*** |

*Cədvəl müxtəlif illər üzrə təqdim edilmiş məlumatlar əsasında Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

2020-ci ilin icra göstəricilərinə, 2021-ci ilin və növbəti ilin proqnoz göstəricilərinə əsasən Fondun gəlirlərinin müvafiq olaraq, 134,3 mln. manatı və ya 77,3%-i, 120,0 mln. manatı və ya 76,1%-i, 136,5 mln. manatı və ya 75,7%-i sığortaedənlərin və sığortaolunanların ödədilkləri sığorta haqqı hesabına formalaşır.

Eyni zamanda, 2020-2021-ci illərin müvafiq göstəriciləri ilə müqayisədə 2022-ci il üçün nəzərdə tutulmuş artım məbləği əsasən sığorta haqların hesabına təmin ediləcəkdir. Belə ki, 2021-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 2022-ci ilə proqnozlaşdırılmış artım məbləğinin 72,6%-i məhz sığorta haqlarında nəzərdə tutulmuş artımla bağlıdır.

**2.2. Nəzərdə tutulmuş bəzi xərc istiqamətləri üzrə icra səviyyəsinin aşağı olması Fondun istifadə edilməmiş vəsaitlərinin növbəti ilin gəlirlərində payının yüksəlməsi və növbəti ildə cəmi gəlirlərin 24,3%-i səviyyəsində proqnozlaşdırılması ilə nəticələnmişdir.**

Təqdim edilmiş məlumatlara əsasən 2020-ci ildə Fondun gəlirlərinin 133,06 mln. manatı (72,7%) işsizlikdən sığorta haqqından, 0,7 mln. manatı (4,7%) sair gəlirlərdən və 39,3 mln. manatı (22,6%) isə 2019-cu ilin sonuna istifadə olunmamış vəsaitdən ibarət olmuşdur.

2020-ci ildə xərc edilmiş vəsait həmin dövr üzrə formalaşmış gəlirin 72,7%-i həcmində olmuşdur ki, bu da sonda nəzərəçarpacaq dərəcədə vəsaitin istifadə olunmamış halda qalmasını şərtləndirmişdir.

Əvvəlki illərdə olduğu kimi cari ildə xərclərin proqnozlaşdırılan səviyyədə icrasının təmin edilməməsinin ilin sonuna istifadə olunmamış vəsaitin həcminin artımını təmin etmişdir. Belə ki, Fondun 2022-ci il üzrə gəlirlərinin strukturunda 2021-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti 43,9 mln. manat məbləğində proqnozlaşdırılmışdır ki, bu da cari illə müqayisədə 6,2 mln. manat və ya 16,4% çoxdur.

**2.3. Növbəti ildə minimum əmək haqqı və orta aylıq əmək haqqı məbləğində nəzərdə tutulmuş artımlar büdcə təşkilatlarından daxil olacaq işsizlikdən sığorta haqqının cari ilin müvafiq göstəricisindən 29,2% çox olmaqla proqnozlaşdırılması ilə nəticələnmişdir.**

Qeyd edildiyi kimi, ümumilikdə büdcədən maliyyələşən təşkilatlar üzrə nəzərdə tutulmuş daxilolmalar Fondun gəlirlərinin 24,1%-ni təşkil edəcəkdir. Bu isə 2020-ci ilin icra göstəricisindən 9,0 mln. manat və ya 26,2%, cari ilin proqnoz göstəricisindən isə 9,8 mln. manat və ya 29,2% çoxdur.

Təqdim edilmiş məlumatlara əsasən büdcədən maliyyələşən təşkilatlar və büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə 2020-ci ildə və cari ilin 6 ayında Fondun gəlirləri müvafiq olaraq 34,4 mln. manat və 16,6 mln. manat təşkil etmişdir.

Dövlət Vergi Xidməti tərəfindən təqdim olunmuş məlumata əsasən büdcə təşkilatları və büdcə təşkilatlarında işləyənlər üzrə cari ilin I yarısında Fondun gəlirləri 16,6 mln. manat olmuşdur ki, bu da 2021-ci illin 33,6 mln. manat məbləğində proqnoz göstəricisinin 49,4%-ni təşkil edir. Cari illə müqayisədə növbəti ildə büdcə təşkilatlarında işləyənlər üzrə

əmək haqqı fondunun 1187,3 mln. və ya 22,5% çox proqnozlaşdırılması həmin istiqamət üzrə Fondun gəlirlərinin 29,2% artımla müəyyən edilməsinə səbəb olmuşdur.

Qanun layihəsində 2022–ci il üzrə Fondun həm büdcə təşkilatlarından, həm də həmin təşkilatlarda işləyənlər üzrə daxilolmaları hər biri 21,7 mln. manat olmaqla ümumilikdə 43,4 mln. manat məbləğində müəyyən olunmuşdur.

**2.4. Cari il üçün müəyyən edilmiş proqnozların artıqlaması ilə icra edilməsinin gözlənilməsi fonunda növbəti ildə qeyri-büdcə sektoru üzrə işsizlikdən sığorta gəlirləri cari illə müqayisədə 7,5% çox olaraq proqnozlaşdırılmışdır.**

Qanun layihəsində 2022-ci ildə Fondun gəlirlərinin böyük hissəsinin (51,6%-nin) və ya 93,0 mln. manatının qeyri-büdcə sektoru üzrə işəgötürənlərin və işçilərin ödədikləri sığorta haqlarından formalaşdırılması nəzərdə tutulur ki, bu da 2020-ci ilin icra göstəricisi ilə müqayisədə 6,2 mln. manat və ya 6,6% az, cari ilin proqnoz göstəriciləri ilə müqayisədə isə 6,5 mln. manat və ya 7,5% çoxdur.

Dövlət Vergi Xidmətinin məlumatına əsasən cari ilin I yarısında qeyri-büdcə sektoru üzrə Fonda daxilolmalar 44,2 mln. manat olmuşdur ki, bu da ilin sonuna qeyri-büdcə sektoru üzrə proqnoz göstəricisindən artıq vəsaitin daxil olmasının gözlənilməsi kimi qiymətləndirilə bilər.

Eyni zamanda həmin məlumatda göstərilir ki, qeyri-büdcə sektoru üzrə işsizlikdən sığorta haqqı ödəyən sığortaolunanların sayı 01.01.2020-ci illə müqayisədə 01.01.2021-ci ildə 126648 nəfər artaraq 1057615 nəfər olmuşdur.

Qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 1816 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın 3.13-cü bəndində işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə haqqı ödənilən ictimai işlərin əhatə dairəsinin genişləndirilməsi, təşkili mexanizminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması nəzərdə tutulmuşdur. 2022-ci ilin dövlət büdcəsi üzrə Qanun layihəsində işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə haqqı ödənilən ictimai işlərin əhatə dairəsinin genişləndirilməsi, təşkili mexanizminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması ilə bağlı xərclərin maliyyə təminatı, o cümlədən iri dövlət müəssisələrində yaradılmış 18 minə yaxın iş yerlərinin əməyin ödənişi xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün 230,7 mln. manat vəsait proqnozlaşdırılmışdır.

2022-ci il üzrə dövlət büdcəsinin layihəsi ilə birgə Hesablama Palatasına təqdim edilmiş məlumatlarda cari il üzrə orta aylıq əmək haqqının 2020-ci il üzrə müəyyən edilmiş göstəricini 35,1 manat və ya 5% üstələyərək 742,8 manat 2022-ci il üzrə proqnozlaşdırılan göstəricinin isə cari ilin müvafiq göstəricisini 64,8 manat və ya 8,7% üstələyərək 807,6 manat olacağı qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi"ndə isə minimum əmək haqqının orta əmək haqqı səviyyəsinin 60 faizinə yaxınlaşdırılması müəyyən edilmişdir. Ölkə üzrə orta aylıq əmək haqqının artırılmasının proqnozlaşdırılması isə son nəticədə qeyri-büdcə sektoru üzrə orta aylıq əmək haqqının da artımı ilə nəticələnəcəkdir. Buna görə də cari illə müqayisədə növbəti ildə Fondun qeyri-büdcə sektoru üzrə gəlirləri 7,5% artımla proqnozlaşdırılmışdır.

Göründüyü kimi, həm sığortaolunanların sayının artım tendensiyasına sahib olması, həm də növbəti illərdə orta aylıq əmək haqqında artımların proqnozlaşdırılması, öz növbəsində, qeyri-büdcə sektoru üzrə olmaqla daxilolmaların artımla proqnozlaşdırılmasına əsas vermişdir.

Ümumiyyətlə İzahat bir sıra məlumatları özündə əks etdirsə də, burada sığortaolunanların sayı üzrə məlumatlar, orta aylıq əmək haqqının artım tempinin sığorta ödəmələrinə təsirinə dair məlumatlar əks edilməmişdir ki, bu da nəticəliliyin Hesablama Palatasına təqdim edilən göstəricilərə və müzakirələr zamanı verilən məlumatlara əsaslanmaqla formalaşmasına gətirib çıxarmışdır.

Müqayisə üçün "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda qeyri-büdcə təşkilatları və ya digər sığortaedənlər üzrə gəlirlər 2157,1 mln. manat məbləğində təsdiq edilmiş, 2022-ci il üzrə isə həmin göstərici 281,7 mln. manat və ya 13,1% artırılaraq 2438,8 mln. manat məbləğində proqnozlaşdırılmışdır.

**2.5. Hesablama Palatası işləyən pensiyaçıların işsizlikdən sığorta haqlarına cəlb edilməsi istiqamətində müvafiq tənzimlənmənin aparılmasının vacib olması qənaətindədir.**

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanunun 5.12.4-cü maddəsinə əsasən yaşa görə əmək pensiyası təyin edilmiş şəxslərin işsiz kimi qeydiyyata alınmasına yol verilmir. Buna görə də yaşa görə əmək pensiyaçıları "Məşğulluq haqqında" və

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunlarında işaxtaran və işsiz şəxslər üçün nəzərdə tutulan güzəşt və imtiyazlardan istifadə etmək hüququna malik deyilllər. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunun 2.0.3-cü maddəsinə uyğun olaraq onlar da işəgötürənlə əmək müqaviləsi bağladıqda Fonda sığorta haqqı ödənilməsinə cəlb olunurlar. Statistik hesabatlara əsasən 01 iyul 2021-ci il vəziyyətinə ölkə üzrə 116527 nəfər yaşa görə pensiyaçı əmək fəaliyyətini davam etdirir. Fonda sığorta haqqı ödəmələrinə baxmayaraq həmin şəxslər əmək fəaliyyətini dayandırdıqda işaxtaran və işsiz vətəndaşlar üçün nəzərdə tutulan güzəşt və imtiyazlardan istifadə etmirlər.

**2.6. Fondun gəlirlərində ən kiçik paya sahib olan sair gəlir növbəti ildə artımla proqnozlaşdırılmışdır.**

Qanun layihəsində 2022-ci ildə sair gəlirlər üzrə Fonda daxilolmalar 2020-ci illə və cari illə müqayisədə 20,0 min manat və ya 66,7% artırılaraq 50,0 min manat məbləğində proqnozlaşdırılmışdır.

Təqdim olunmuş məlumatlara əsasən Fonda sair gəlirlər üzrə daxilolmalar 2020-ci ildə 0,7 mln. manat təşkil etmişdir. Cari ilin 9 ayı üzrə isə sair gəlirlərin 22,5 min manat olması gözlənilir.

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən müəyyən olunmuş qaydada ödənilən sığorta haqları, Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalara görə tətbiq olunan inzibati cərimələr, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq alınan qrantlar, ianələr və yardımlar, bank kreditləri, qanunla və Nazirlik tərəfindən nəzərdə tutulan digər mənbələr də Fondun sığorta vəsaitlərinin mənbələri sırasında qeyd olunmuşdur.

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada ödənilən sığorta haqları istisna olmaqla Fondun bütün digər gəlirləri sair gəlirlər kimi ümumiləşdirilərək Qanun layihəsinin 2-ci maddəsində tərkibi açıqlanmadan göstərilmişdir.

Təqdim olunmuş məlumata əsasən cari ilin 9 ayı üzrə sair gəlirlərin 24,8 min manatı tenderdə iştirak haqqından, 10,4 min manat əmək kitabçasının satışından, 7,8 min manat müqavilənin icra olunmamış hissəsinin geri qaytarılmasından, 5,8 min manatı "DOST İş" mərkəzindən geri qaytarılan vəsaitdən, 0,3 min manatı isə 2020-ci ilin əmək haqqı

kartlarının sifarişindən səhvən tutulmuş komissiyanın geri qaytarılmasından, artıq ödənilmiş işsizliyə görə sığorta müavinəti məbləğinin bərpa olunmasından formalaşmışdır.

**2.7. Əvvəlki dövrlərlə müqayisədə cari dövrdə debitor borcların artımı fonunda kreditor borclar azalma meyli olmuşdur ki, bu da gəlir və xərclərin nəzərdə tutulmuş məbləğinə təsir edən əsas amil kimi qiymətləndirilməlidir.**

Dövlət Vergi Xidməti tərəfindən təqdim olunmuş məlumata əsasən 01.01.2021-ci illə müqayisədə 01.07.2021-ci il tarixə debitor borc 710,7 min manat və ya 35,8% artaraq 1986,7 min manatdan 2697,4 min manata çatmışdır. Debitor borcun 52,9 min manatı və ya 2,0%-i büdcə təşkilatları üzrə, 502,2 min manatı və ya 18,6%- fiziki şəxslər üzrə yaranmışdır. Debitor borcun 205,2 min manatı və ya 7,6%-i Azərsu ASC, 325,5 min manatı və ya 12,1%-i dövlət mülkiyyətində, 83,7 min manatı və ya 3,1%-i bələdiyyə mülkiyyətində olan təşkilatlar, 1527,9 min manatı və ya 56,6%-i digər hüquqi şəxslər üzrə formalaşmışdır.

Debitor borcun artmasının başlıca səbəbi kimi pandemiya şəraiti ilə əlaqədar fiziki şəxslər və bəzi hüquqi şəxslər tərəfindən sosial sığorta haqlarının vaxtında ödənilməsinin gecikdirilməsi göstərilə bilər.

Fondun kreditor borcları isə 01.07.2021-ci ildə 1628,8 min manat olmaqla 01.01.2021-ci illə müqayisədə 545,7 min manat və ya 33,5% azalmışdır. Kreditor borcun 323,5 min manatı və ya 19,9%-i büdcə təşkilatları, 258,3 min manatı və ya 15,9%-i dövlət mülkiyyətində olan digər təşkilatlar, 887,3 min manatı və ya 54,5%-i digər hüquqi şəxslər üzrə yaranmışdır ki, bu da həmin təşkilatlar üzrə sosial sığorta haqlarının qabaqcadan ödənilməsi ilə izah oluna bilər.

Ümumi borclarda kreditor borcların azalma tendensiyasına sahib olması dövr üzrə formalaşmış gəlirlərin real gəlir potensialına əsasən müəyyənləşdiyini əks etdirir ki, bu da gələcək dövrə yönəlik təhlillərin daha effektiv aparılmasına şərait yaratmış olur.

Ümumiyyətlə, İzahatda debitor və kreditor borclar üzrə dəyişikliyin başvermə səbəbləri barədə məlumatlar öz əksini tapmadığından Hesablama Palatası tərəfindən qiymətləndirmə müvafiq göstəricilərin təhlilinə əsaslanmaqla aparılmışdır.

## III BÖLMƏ. İŞSİZLİKDƏN SIĞORTA FONDUNUN XƏRCLƏRİ

**3.1. Fondun xərcləri, əvvəlki illərdə olduğu kimi, gəlirlərinə bərabər tutularaq artımla proqnozlaşdırılmışdır ki, bu artımın 66,4%-ni əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri təşkil edir.**

2022-ci ildə Fondun xərcləri üzrə təyinat 180,4 mln. manat nəzərdə tutulmuşdur. Həmin vəsait 2020-ci ilin icra göstəricisindən 54,1 mln. manat və ya 42,8%, cari ilin proqnoz göstəricisindən isə 22,6 mln. manat və ya 14,3% çoxdur (Cədvəl 2).

**Cədvəl 2. Fondun xərc istiqamətləri üzrə proqnoz və icra göstəriciləri, mln. manatla**

| Xərc istiqamətləri | 2020 | | 2021 | 2022 | | |
|---|---|---|---|---|---|---|
| | proqnoz | icra | proqnoz | proqnoz | müqayisə | |
| | | | | | 2020-ci illə | 2021-ci illə |
| Işsizliyə görə sığorta ödənişləri | 10,0 | 1,9 | 13,0 | 8,5 | 6,6 | -4,5 |
| peşə hazırlığı və əlavə təhsilin təşkili | 7,0 | 2,5 | 7,0 | 9,0 | 6,5 | 2,0 |
| peşə yönümlü məsləhət xidmətlərinin göstərilməsi | 2,0 | 0,0 | 2,0 | 2,0 | 2,0 | 0,0 |
| əmək yarmarkalarının və əmək birjalarının təşkili | 0,5 | 0,1 | 1,0 | 1,0 | 0,9 | 0,0 |
| haqqı ödənilən ictimai işlərin təşkili | 3,0 | 2,0 | 2,0 | 2,5 | 0,5 | 0,5 |
| özünüməşğulluq tədbirlərinin təşkili | 78,7 | 76,7 | 68,8 | 76,1 | -0,6 | 7,3 |
| sosial iş yerlərində əmək haqqının bir hissəsinin maliyyələşdirilməsi | 3,0 | 0,0 | 2,0 | 3,0 | 3,0 | 1,0 |
| peşə standartlarının hazırlanması | 2,0 | 1,0 | 2,0 | 1,0 | 0,0 | -1,0 |
| Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının, "DOST" Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Obsevratoriyanın saxlanılması xərcləri | 43,0 | 42,2 | 42,0 | 43,8 | 1,6 | 1,8 |
| Nazirliyin əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | | | 15,0 | 30,0 | 30,0 | 15,0 |
| sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin və ixtisaslaşdırılmış müəssisələrin yaradılması və məqsədli | 1,0 | | 2,0 | 2,5 | 2,5 | 0,5 |
| qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirləri | 1,0 | | 1,0 | 1,0 | 1,0 | 0,0 |
| ***Cəmi xərclər*** | **151,2** | **126,28** | **157,8** | **180,4** | **54,1** | **22,6** |

*Cədvəl Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

2022-ci ildə Fondun xərclərinin 106,6 mln. manatı və ya 59,1%-i əhalinin məşğulluğunun təmin edilməsinə, 73,8 mln. manatı və ya 40,9%-i Dövlət Məşğulluq

Agentliyinin, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın saxlanılması, habelə Nazirliyin əhaliyə sosial xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərclərinə yönəldiləcəkdir. Həmin göstəricilər müvafiq olaraq 2020-ci ildə 108,2 mln. manat və ya 71,6%, 43,0 mln. manat və ya 28,4%, 2021-ci ildə isə 100,8 mln. manat və ya 63,9%, 57,0 mln manat və ya 39,1% təşkil etmişdir.

**3.2. Hesablama Palatası işsizliyə görə sığorta ödənişi üzrə nəzərdə tutulmuş vəsaitin məbləğinin cari illə müqayisədə nəzərəçarpacaq dərəcədə az proqnozlaşdırılmasını müvafiq rəylərdə qeyd edilənlər diqqətə alınaraq mövcud meyllərin nəzərə alınması ilə bağlı olduğu, həmçinin əhatəliliyin genişləndirilməsi məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklərin vəsaitlərin icra səviyyəsinə əsaslı təsir göstərmədiyi qənaətindədir.**

2022-ci ildə işsizliyə görə sığorta ödənişləri üzrə təyinat 8,5 mln. manat müəyyən edilmişdir ki, bu da həmin ildə əhalinin məşğulluğunun təmin edilməsi üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün proqnozlaşdırılan vəsaitin 8,0%-ni, bütövlükdə isə Fondun xərclərinin 4,7%-ni təşkil edir. Növbəti ilə işsizliyə görə sığorta ödənişinin maliyyələşdirilməsi üçün proqnozlaşdırılan təyinat 2020-ci ilin icra göstəricisindən 6,6 mln. manat və ya 28,9% çox, cari ilin təsdiq edilmiş proqnoz göstəricindən isə 4,5 mln. manat və ya 34,6% azdır.

Təqdim edilmiş məlumata əsasən 2020-ci ildə cəmi 1292 nəfərə yeni təyinat aparılmaqla ümumilikdə 5951 nəfər üçün cəmi 1,9 mln. manat vəsaitdən istifadə edilmişdir. Cari ilin 9 ayında 10534 nəfərə, ilin sonunadək isə 13509 nəfərə işsizliyə görə sığorta ödənişinin aparılması, bu məqsədlə müvafiq olaraq 3,1 mln. manat və 4,6 mln. manat vəsaitin sərf edilməsi gözlənilir. İşsizliyə görə sığorta ödənişinin adambaşına düşən orta aylıq məbləği 2020-ci ildə 319,2 manat, cari ildə isə 21,3 manat və ya 6,7% artaraq 340,5 manat təşkil etmişdir.

Qeyd edək ki, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust 163-VIQD nömrəli Qanunu qəbul edilmiş, həmin Qanuna əsasən əmək müqaviləsinin bitməsi əsası ilə sərbəstləşən şəxslərə sığorta ödənişi almaq hüququ yaradılmış, ixtisar və ləğv əsası üçün sığorta stajı 3 ildən 1 ilə azaldılmış, sığorta stajından asılı olaraq sığorta ödənişinin differensiallaşdırılması aradan qaldırılmışdır (stajdan asılı olaraq 50,55,60 faiz 50 faizlə

əvəz edilmişdir). Lakin Fondun xərclərinin istər 2020-ci ilin, istərsə də cari ilin 9 ayının nəticələri göstərir ki, bu addımların vəsaitlərin icra səviyyəsinə təsiri az olmuşdur. Belə ki, 2021-ci ilin sonuna qədər işsizliyə görə sığorta ödənişlərinin maliyyələşdirilməsi üçün proqnozlaşdırılan 13,0 mln. manat vəsaitin cəmi 35,4%-dən istifadə edilməsi nəzərdə tutulmuşdur. Bu isə təyin edilmiş ödənişin orta aylıq məbləğinin artması fonunda həmin ödənişdən yararlanan şəxslərin sayının az olması ilə əlaqədardır. Növbəti ildə isə işsizliyə görə sığorta ödənişinin maliyyələşdirilməsi üçün cari ilin təsdiq edilmiş proqnoz göstəricisindən 4,5 mln. manat az vəsait ayrılması nəzərdə tutulur.

İşsizliyə görə sığorta ödənişi üzrə nəzərdə tutulmuş vəsaitin məbləğinin cari illə müqayisədə nəzərəçarpacaq dərəcədə az proqnozlaşdırılması səbəbləri barədə İzahatda əlavə məlumat təqdim edilməmişdir.

Qeyd edilənləri diqqətə alaraq, işsizlikdən sığorta haqqının əhatə dairəsini, həmçinin ödənişlərin təyin edilməsi ilə bağlı prosedurları tənzimləyən hüquqi aktların təkmilləşdirilməsi, onların tətbiqi üzrə tədbirlərin effektivliyinin yüksəldilməsi üzrə təsiredici faktorların təhlil edilməsi və bu təhlillərin nəticələrinə əsaslanmaqla hüquqi aktların və fəaliyyətin təkmilləşdirilməsi zərurətinin mövcud olması qənaətindəyik.

**3.3. Əvvəlki illərdə peşə hazırlığı və əlavə təhsilin təşkili, peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi, əmək yarmarkalarının, əmək birjalarının, haqqı ödənilən ictimai işlərin təşkili üzrə xərclərin proqnoz göstəricisindən aşağı səviyyədə icra edilməsi fonunda növbəti ildə artımla proqnozlaşdırılır ki, Hesablama Palatası işsizlikdən sığorta ödənişlərinin azalma ilə proqnozlaşdırılmasını da diqqətə alaraq növbəti illərdə aktiv tədbirlərin üstünlük təşkil edəcəyi qənaətindədir.**

Qanun layihəsində 2022-ci ildə peşə hazırlığı və əlavə təhsilin təşkilinə 9,0 mln. manat, peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsinə 2,0 mln. manat, əmək yarmarkalarının və əmək birjalarının təşkili tədbirlərinə 1,0 mln. manat, haqqı ödənilən ictimai işlərin həyata keçirilməsinə 2,5 mln. manat məbləğində təyinatlar proqnozlaşdırılır. Bütövlükdə həmin məqsədlər üçün 2022-ci ildə cəmi 14,5 mln. manat və ya Fondun ümumi xərclərinin 8,0%-i həcmində xərc nəzərdə tutulur ki, bu da 2020-ci ilin icra göstəriciləri ilə müqayisədə 9,9 mln. manat və ya 3,1 dəfə, cari ilin təsdiq edilmiş müvafiq göstəricisi ilə müqayisədə isə 2,5 mln. manat və ya 17,2% çoxdur. Artım əsasən peşə hazırlığı və əlavə təhsilin təşkilinə və haqqı ödənilən ictimai işlərə yönəldilən vəsaitin daha yüksək məbləğdə proqnozlaşdırılması ilə əlaqədardır.

Təqdim olunmuş məlumatlara əsasən 2020-ci ildə 718 nəfərin peşə hazırlığı və əlavə təhsili təşkil edilmiş, bu məqsədlə 2,6 mln. manat vəsait sərf edilmişdir.

Yuxarıda qeyd edilən istiqamətlər üzrə Fondun xərcləri 2020-ci ildə 4,6 mln. manat və ya nəzərdə tutulan vəsaitin 36,8%-i, cari ilin I yarısında isə 2,7 mln. manat və ya proqnozlaşdırılan vəsaitin 21,6%-i təşkil etmişdir. Təqdim olunmuş məlumata əsasən cari ilin sonuna həmin istiqamətlər üzrə 10,6 mln. manat və ya proqnozlaşdırılan vəsaitin 88,3%-i həcmindən istifadə olunması gözlənilir. Peşə hazırlığının nəzəri və praktiki hissələrini, məzmununu, müraciət etmiş müəssisələrin maddi-texniki bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, müdavimlərin bilik , bacarıq və vərdişlərinin səviyyəsini nəzərə alaraq peşə hazırlığının maliyyələşdirilməsinin adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilməsi planlaşdırılır.

Adambaşına maliyyələşdirmə bir təhsilalana düşən xərcin müəyyənləşdirilməsi prinsipi əsasında həyata keçirilməsini nəzərdə tutur ki, bu da peşə istiqamətlərinin xüsusiyyətləri nəzərə alınmaqla mövcud maliyyələşmə sistemində köklü islahat aparılmadan keyfiyyətli mütəxəssis hazırlığına şərait yaratmış olacaqdır.

Cari ilin I yarısında isə 262 nəfərin peşə hazırlığının, 118 nəfərin isə əlavə təhsilinin təşkili məqsədilə 1,7 mln. manat vəsait sərf edilmiş, 9 ayın nəticələrinə görə 4,4 mln. manat vəsaitdən istifadə olunması, ilin sonunadək 500 nəfərin peşə hazırlığının təşkil edilməsi, bu məqsədlə 7,0 mln. manatdan və ya illik maliyyələşdirmənin 77,8%-dən istifadə edilməsi nəzərdə tutulur.

**3.4. Hesablama Palatası əvvəlki illərdə peşə hazırlığına cəlb edilən şəxslərin az hissəsinin işlə təmin edilməsini diqqətə alaraq qeyd edilən istiqamət üzrə fəaliyyətin daha effektiv formada təşkilinə zərurət olması qənaətindədir.**

2020-ci ildə və cari ilin 9 ayında peşə hazırlığına cəlb edilmiş şəxslərə təqaüd ödənilmişdir. Lakin 2020-ci ildə peşə hazırlığına cəlb edilmiş 718 nəfərdən cəmi 85 nəfəri və ya 11,8%-i işlə təmin olunmuş, cari ilin 9 ayında isə peşə hazırlığına cəlb edilmiş 262 nəfərdən 137 nəfərinin və ya 52,2%-i işlə təmin olunması gözlənilr. Peşə hazırlığına cəlb edilmiş şəxslərin aşağı səviyyədə işlə təmin olunması bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsinə ehtiyacın olması qənaətini formalaşdırır. Belə ki, Strategiyada dövlət məşğulluq xidməti orqanlarına müraciət etmiş vətəndaşların işədüzəlmə səviyyəsini 2030-cu ilədək 70,0 %-ə çatdırmaq nəzərdə tutulmuşdur. Növbəti ildə isə 3000 nəfərin peşə

hazırlığına cəlb olunması və onlardan 1800 nəfərinin və ya 60,0%-n işlə təmin olunması proqnozlaşdırılır.

2020-ci ilin icra göstəricilərinə əsasən 618 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, bununla əlaqədar 2,0 mln. manat vəsaitdən istifadə olunmuşdur.

Cari ilin I yarısında 471 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, bu məqsədlə 1,0 mln. manat vəsait sərf olunmuş, pandemiya şəraiti ilə əlaqədar 9 ayın nəticələrinə görə 1,6 mln. manat vəsaitdən istifadə olunması gözlənilir. İlin sonunadək 300 nəfərin, növbəti ildə isə 370 nəfərin haqqı ödənilən ictimai işlərə cəlb olunması nəzərdə tutulur.

Pandemiya şəraiti ilə əlaqədar 2020-ci ildə cəmi 16 əmək yarmarkası keçirilmiş və bu məqsədlə 7,1 min manat vəsait sərf olunmuş, cari ilin I yarısında əmək yarmarkası keçirilməmişdir. Növbəti ildə 500 əmək yarmarkasının keçirilməsi nəzərdə tutulur.

Qeyd edilənlər daha çox işsiz və iş axtaran şəxslərin aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi istiqamətində potensialın tam reallaşdırılmadığı qənaətində gəlməyə əsas verir.

**3.5. Hesablama Palatası "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda özünüməşğulluq proqramının əhatə dairəsini 2020-ci ilədək 6 dəfəyə qədər artırılması ilə bağlı hədəfin tam reallaşdırılmadığını diqqətə alaraq növbəti ildə Fondun xərclərində ən yüksək paya sahib olan özünüməşğulluq tədbirlərinin nəticəliliyinin artırılması üzrə mövcud potensialın genişləndirilməsi imkanlarının olması qənaətindədir.**

2022-ci ildə özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi üçün 76,1 mln. manat məbləğində təyinat müəyyən edilmişdir ki, bu da həmin ildə əhalinin məşğulluğunun təmin edilməsi üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün proqnozlaşdırılan vəsaitin 71,4%-ni, bütövlükdə isə Fondun xərclərinin 42,2%-ni təşkil edir.

Növbəti ildə özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi üçün proqnozlaşdırılan təyinat 2020-ci ilin icra göstəricisindən 0,6 mln. manat və ya 0,8% az, cari ilin təsdiq edilmiş proqnoz göstəricisindən isə 7,3 mln. manat və ya 10,6% çoxdur.

Təqdim olunmuş məlumatlara əsasən 1 nəfərin özünüməşğulluğunun təmin olunması üçün 2020-ci ildə orta hesabla 7233 manat vəsait sərf edilmiş, cari ildə həmin göstəricinin 6796 manata bərabər olması gözlənilir.

Özünüməşğulluq şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi kimi xarakterizə olunur. Bu tədbirlər əhalinin sosial cəhətdən həssas hissəsinin, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsində və həyat səviyyəsinin yüksəldilməsində, ənənəvi "passiv" siyasət tədbirlərindən (müavinət və yardımların verilməsi) "aktiv" məşğulluq siyasət tədbirlərinə (sosial cəhətdən həssas əhali qruplarının əmək bazarında məşğulluğunun təmin olunmasına dəstək) keçilməsində xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda özünüməşğulluq proqramının əhatə dairəsini 2020-ci ilədək 6 dəfəyə qədər artırmaq vəzifəsi müəyyən olunmuşdur.

2016-2017-ci illərdə özünüməşğulluğa 1281 nəfər, 2018-ci ildə 2718 nəfər cəlb olunduğu halda, 2019-cu il bu tədbirlərin əhatə dairəsi genişləndirilərək 10350 nəfərin, 2020-ci ildə isə əlavə olaraq 10600 nəfərin, cari ilin I yarısında 1565 nəfərin, 2020-ci ilədək özünüməşğulluğun əhatə dairəsini 6 dəfə artırmağa nail olunmasa da, ümumilikdə 26514 nəfərin özünüməşğulluğu təmin olunmuşdur. İlin sonuna 10270 nəfərin özünüməşğulluğunun təmin olunması gözlənilir (Şəkil 1)

**Şəkil 1. Özünüməşğulluq tədbirləri ilə əhatə olunmuş şəxslərin sayı haqqında məlumat (nəfərlə)**




*Şəkil Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Onların 24037 nəfəri və ya 90,7%-i iqtisadiyyatın kənd təsərrüfatı, 1733 nəfəri və ya 6,5%-i xidmət, 744 nəfəri və ya 2,8%-i istehsal sahəsi üzrə özünüməşğulluq tədbirlərinə cəlb edilmişdir (Şəkil 2). Təqdim olunmuş məlumata əsasən iqtisadiyyatın istehsal və

xidmət sahələrində özünüməşğulluq tədbirlərinə cəlb olunmuş şəxslərin 1519 nəfəri və ya 61,3%-i Bakı, Sumqayıt və Gəncə şəhərlərində yaşayır.

**Şəkil 2. İqtisadiyyatın sahələri üzrə özünüməşğulluq tədbirlərinə cəlb olunanlar haqqında məlumat, nəfərlə**




*Şəkil Hesablama Palatası tərəfindən tərtib edilmişdir.*

Cari ilin 9 ayında özünüməşğulluq tədbirlərinin təşkili üçün 47,0 mln. manat, ilin sonuna isə 69,8 mln. manat və ya nəzərdə tutulan vəsaitin tam istifadə olunması gözlənilir.

Özünüməşğulluq tədbirləri çərçivəsində aktivlərlə təmin edilmiş şəxslərin əksər hissəsinin kənd təsərrüfatı ilə məşğul olan şəxslər sırasından olması digər sahələrin, yəni istehsal və xidmət sahələrinin əmək tutumluluğu və iqtisadi faydalılığı nəzərə alınmaqla bu istiqamətlər üzrə də potensialın inkişafının zəruri olduğunu əks etdirir.

**3.6. Sığortaolunanların əmək haqqının müəyyən hissəsinin müəyyən müddətə sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi üzrə əvvəlki illərdə vəsaitin xərc edilməməsini, cari ildə isə aşağı səviyyəli icraya sahib olmasını nəzərə alaraq, Hesablama Palatası bu istiqamət üzrə potensialdan daha səmərəli istifadənin mümkünlüyü qənaətindədir.**

Qanun layihəsində növbəti ildə sosial iş yerlərində əmək haqqının bir hissəsinin maliyyələşdirilməsi məqsədilə 1,0 mln. manat vəsait ayrılması proqnozlaşdırıır. Bu isə Fondun ümumi büdcəsinin 0,6%-ni, əhalinin məşğulluq tədbirləri üçün ayrılan vəsaitin isə 0,9%-ni təşkil edir.

Qanun layihəsinin bu maddəsi "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.6-cı maddəsinin icrası ilə əlaqədar tərtib edilmişdir. Qanunun həmin maddəsinin icrası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il

8 iyul tarixli 244 nömrəli qərarı ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"na əsasən tənzimlənir. Qaydanın 2.1-ci bəndinə əsasən dövlətə və bələdiyyəyə məxsus hüquqi şəxslər istisna olmaqla, son 1 (bir) ildə fəaliyyətdə olan, habelə Agentlik tərəfindən əmək bazarının təhlili əsasında müəyyən edilən prioritet iqtisadi sahələr və peşələr (ixtisaslar) üzrə vakansiyası olan və ya yeni vakansiya yaradan hər bir işəgötürən sosial iş yerləri üzrə əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi üçün müraciət edə bilər.

Qeyd edək ki, bu istiqamətdə nəzərdə tutulan vəsait İşsizlikdən sığorta fondunun 2018-2021-ci illər üzrə büdcələri haqqında qanunlarda sığortaolunanların əmək haqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi üçün proqnozlaşdırılırdı. Həmin məqsədlə 2020-ci ildə 3,0 mln. manat, 2021-ci ildə isə 2,0 mln. manat vəsaitdən istifadə olunması nəzərdə tutulmuşdur. 2020-ci ildə 2018 və 2019-cu illərdə olduğu kimi, bu məqsədlə nəzərdə tutulan vəsaitdən istifadə olunmamışdır. 2021-ci ilin 9 ayında isə cəmi 257,0 min manat vəsaitdən istifadə olunması gözlənilir. Bu isə icra səviyyəsinin aşağı olması kimi qiymətləndirilə bilər. Növbəti ildə sosial iş yerləri üzrə 600-700 nəfərin əmək haqqının ödənilməsinin təmin edilməsi proqnozlaşdırılır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər Planı"nın *iqtisadi artıma və sahibkarlığa dəstək*, *məşğulluq və sosial rifaha dəstək* və *makroiqtisadi və maliyyə sabitliyi* bölmələrinin tətbiqi də sosial iş yerlərində əmək haqqının bir hissəsinin maliyyələşdirilməsi üçün ayrılan vəsaitdən tam istifadə edilməməsinə müəyyən dərəcədə təsir göstərmişdir.

**3.7. Əvvəlki illərdə peşə standartlarının hazırlanması üzrə müəyyən edilmiş proqnozun tam həcmdə icra edilməməsi növbəti ildə bu istiqamət üzrə xərclərin aşağı səviyyədə proqnozlaşdırılmasını zəruri etmişdir.**

Fondun 2022-ci il üzrə xərclərində peşə standartlarının hazırlanması məqsədilə 1,0 mln. manat məbləğində vəsait ayrılması proqnozlaşdırılır ki, bu da Fondun ümumi xərclərinin 0,6%-ni təşkil edir. Növbəti il üçün bu istiqamətdə nəzərdə tutulan vəsait əvvəlki illərdə bu məqsədlə proqnozlaşdırılan vəsaitdən tam istifadə edilmədiyi üçün müvafiq olaraq 2020 və 2021-ci il üçün müəyyən edilən vəsaitdən 1,0 mln. manat və ya 100,0% azdır.

2020-ci ildə icra göstəricisi 1,0 mln. manat və ya 50,0% olmuş, cari ilin 9 ayında da peşə standartlarının hazırlanması üçün nəzərdə tutulan vəsaitin 1,0 mln. manatından və ya 50,0%-dən istifadə olunması gözlənilir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi”ndə peşə standartlarının tərtibi və tətbiqi ilə bağlı normativ-hüquqi əsasların hazırlanması, təsdiqi və təşviqi ilə bağlı təkliflərin hazırlanması müəyyən edilmiş, əmək bazarının keyfiyyət tələblərini-bilik və bacarıqlara olan tələbləri müəyyənləşdirmək üçün müəssisələrin nümayəndələri və sosial tərəfdaşları ilə birlikdə prioritet sahələr üzrə peşə standartlarının hazırlanmasının dəstəklənməsi nəzərdə tutulmuşdur.

Strateji Yol Xəritəsində peşə təhsili sisteminin gələcək inkişafını təmin etmək üçün dövlət, özəl və beynəlxalq maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi nəzərdə tutulmuşdur. Gözlənilən nəticə və nəticə indikatoru kimi peşə standartlarının və təhsil proqramlarının hazırlanmasının peşə təhsili müəssisələri məzunlarının məşğulluq səviyyəsinin artması və gələcəkdə keyfiyyətli kadr hazırlığının təmin olunması müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nda 2030-cu ilədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmaq və peşə təhsilində bütün kurikulumların peşə standartları əsasında hazırlanmasına nail olmaq vəzifəsi müəyyən olunmuşdur. Belə ki, səriştələr əsasında hazırlanmış peşə standartlarının tətbiqi milli işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması və onun beynəlxalq əmək bazarına inteqrasiyası üçün əsas vasitə hesab olunur.

Təqdim edilən məlumatlara əsasən 2020-ci ildə 54 peşə və kvalifikasiya standartı (27 peşə və 27 kvalifikasiya) hazırlanaraq sahə komissiyaları tərəfindən qəbul olunmuşdur. 2021-ci ildə 9 ayında 350 peşə və kvalifikasiya standartı (175 peşə, 175 kvalifikasiya) icraçı şirkət tərəfindən hazırlanmış və Nazirliyə təqdim edilmişdir. Onlardan 2021-ci ilin 6 ayı ərzində 146 (73 peşə, 43 kvalifikasiya) peşə və kvalifikasiya standartları Nazirliyin Kollegiyasının müvafiq qərarları ilə təsdiq edilmiş və reyestrə daxil edilmişdir. Hazırda sahə komissiyalarında 204 peşə və kvalifikasiya standartları müzakirə olunur. Onlardan 26-sı müvafiq sahə komissiyalarında təsdiq edilib və yaxın günlərdə Nazirliyin

Kollegiyasına təqdim ediləcəkdir. Eyni zamanda, daha 340 peşə və kvalifikasiya standartlarının layihələrinin icraçı şirkət tərəfindən hazırlanması üzrə müvafiq işlər aparılır. Növbəti mərhələdə 130 (75 peşə, 75 kvalifikasiya) peşə və kvalifikasiya standartlarının hazırlanması nəzərdə tutulur.

Təqdim edilmiş məlumatlara əsasən 2020-ci ildə peşə və kvalifikasiya standartlarının hazırlanması istiqaməti üzrə ümumilikdə 974,2 min manat, cari ilin 9 ayında isə 630,0 min manat vəsait xərc edilmişdir. Başqa sözlə, 2020-ci ildə 1 standart üzrə xərc edilmiş vəsait 18,0 min manat, cari ilin 9 ayı üzrə isə bu göstərici 1,8 min manat olmuşdur.

İzahatda peşə standartları üzrə göstəricilərinin əhatəli formada öz əksini tapmaması nəticəsində Hesablama Palatası tərəfindən qeyd edilən uyğunsuzluğun baş vermə səbəblərinin təhlil edilərək qiymətləndirilməsi mümkün olmamışdır.

**3.8. Cari ildə Dövlət Məşğulluq Xidməti Agentliyinin aparatının və onun yerli orqanlarının, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın saxlanılması, Nazirliyin əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi üzrə xərclərin gözlənilən icrasının müəyyən edilmiş həddən aşağı olması fonunda növbəti ildə bu istiqamətlər üzrə xərclər artımla proqnozlaşdırılmışdır.**

Qanun layihəsində 2021-ci ildə Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın saxlanılması üçün 43,0 mln. manat, Nazirliyin əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi məqsədilə 30,0 mln. manat, bütövlükdə 73,8 mln. manat məbləğində vəsait ayrılması proqnozlaşdırılır. Bu da Fondun xərclərinin 40,9%-ni təşkil edir. Həmin məbləğ 2020-ci ilin icra göstəricilərindən 31,63 mln. manat və ya 75,0%, 2021-ci ilin proqnoz göstəricilərindən isə 16,8 mln. manat və ya 29,5% çoxdur. Proqnozlaşdırılan artım əsasən Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin əhatə dairəsinin genişləndirilməsi ilə izah oluna bilər.

Qeyd edək ki, 2021-ci ildə Dövlət Məşğulluq Xidməti Agentliyinin və onun yerli orqanlarının, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin, Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın saxlanılması xərcləri üçün 42,0 mln. manat, Nazirliyin əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətlərin müştərək maliyyələşdirilməsi üçün 15,0

mln. manat, bütövlükdə 57,0 mln. manat vəsaitdən istifadə olunması proqnozlaşdırılmışdır. Təqdim olunmuş məlumatlara əsasən cari ilin sonuna yuxarıda qeyd olunan istiqamətlər üzrə cəmi 44,6 mln. manat vəsaitin sərf ediləcəyi gözlənilir. Növbəti ildə isə həmin istiqamətlər üzrə proqnozlaşdırılan vəsaitin 29,2 mln. manat və ya 65,5% artırılması proqnozlaşdırılır ki, bu da proqnozlaşdırılan vəsaitdən tam istifadə olunmaması qənaətini formalaşdırır.

**3.9. Əvvəlki illərdə və cari ilin 9 ayında sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin və ixtisaslaşdırılmış müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi, qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirləri üzrə nəzərdə tutulmuş vəsaitin xərc edilməməsi fonunda növbəti ildə bu istiqamət üzrə xərc əvvəlki illərlə müqayisədə artıq proqnozlaşdırılmışdır.**

Qanun layihəsində 2022-ci ildə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin və ixtisaslaşdırılmış müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi məqsədilə 2,5 mln. manat, qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirlərinin (işsizlər üçün müxtəlif istiqamətlər üzrə müsabiqə tələb olunan iş yerlərinə (dövlət qulluğu, təhsil, səhiyyə, iri dövlət şirkətləri, bank və maliyyə sektoru və s.) hazırlıq kurslarının təşkili və s.) maliyyələşdirilməsi üçün 1,0 mln. manat məbləğində təyinat nəzərdə tutulmuşdur. Bu da Fondun ümumi büdcəsinin 1,9%-ni, əhalinin məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan vəsaitin isə 3,3%-ni təşkil edir. Həmin məbləğ 2020-ci ildə və cari ildə bu məqsədlərə ayrılmış vəsaitdən müvafiq olaraq 1,5 mln. manat və ya 75,0%, 0,5 mln. manat və ya 16,7% çoxdur.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün fərdi yanaşma tələb etməklə işsiz vətəndaşların məşğulluğunun təmin olunmasında xüsusi əhəmiyyətə malikdir. Lakin 2020-ci ildə və cari ilin 9 ayında bu məqsədlə ayrılmış vəsaitdən istifadə olunmamışdır. Eyni zamanda təqdim olunmuş məlumata əsasən növbəti ildə bu məqsədlə ayrılmış vəsaitdən istifadə olunması üçün hər hansı tədbirin həyata keçirilməsi planlaşdırılmamışdır.

## IV BÖLMƏ. TÖVSİYƏLƏR

Beləliklə, Rəy üzrə göstərilən məlumatlara və nəticələrə əsaslanaraq Hesablama Palatası aşağıdakıları **tövsiyə** edir**:**

**1. 1.1-ci nəticəyə əsaslanmaqla**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə büdcədənkənar dövlət fondunun növbəti il üçün büdcə layihəsi ilə birlikdə büdcə ilindən sonrakı üç il üzrə tərtib edilərək təqdim olunması ilə bağlı əlavələrin edilməsini;

**2. 1.1-ci nəticəyə əsaslanmaqla**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə büdcədənkənar dövlət fondunun növbəti il üzrə büdcəsinin funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində layihəsinin "Büdcə zərfi"nə daxil edilməsi ilə bağlı əlavələrin olunmasını;

**3. 1.4-cü nəticəyə əsaslanmaqla**

Qanun layihəsi ilə birgə təqdim olunan izahatın məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə nəzərdə tutulmuş maliyyə vəsaitləri və nəticələr, müşahidə edilən və nəzərdə tutulan meyllər və s. barədə məlumatların izahatda əks etdirilməsi ilə bağlı tələblərin büdcə qanunvericiliyində müəyyən olunması;

**4. 1.1-ci nəticəyə əsaslanmaqla**

Ölkədə dövlət vəsaitləri üzərində hesabatlılığın tamlığının təmin edilməsi, maliyyə inzibatçılığının gücləndirilməsi, həmçinin "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına şəraitin yaradılması məqsədilə büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasının, dövlət büdcəsində olduğu kimi, Qanunla təsdiq edilməsini, həmçinin bu fondların layihələrinin Milli Məclisə təqdim edilməsi prosesi üzrə normalarının müəyyən olunmasını;

**5. 2.5-ci nəticəyə əsaslanmaqla**

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən yaşa görə əmək pensiyası təyin edilmiş şəxslərin işsiz kimi qeydiyyata alınmağını nəzərə alaraq həmin şəxslərin əmək müqaviləsi üzrə işlədiyi hallarda əldə etdikləri gəlirlərin işşizlikdən sığorta haqqı ilə əhatə olunub-olunmama məsələsinə yenidən baxılmasını;

**6. 2.2-ci nəticəyə əsaslanmaqla**

Fondun istifadə olunmayan vəsaitlərinin ümumi gəlirlərin 20%-n yüksək olan bir hissəsini əhatə etməsini nəzərə alaraq gələcəkdə Fondun maliyyə institutu kimi fəaliyyət göstərilməsi məsələsinə baxılmasını;

**7. 3.4-cü və 3.9-cu nəticələrə əsaslanmaqla**

Aktiv məşğulluq tədbirləri üzrə, işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin edilməsi istiqamətində mövcud maliyyə imkanlarından tam istifadə olunması eyni zamanda, peşə hazırlığına cəlb olunmuş şəxslərin işlə təmin olunması səviyyəsinin yüksəldilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini;

**8. 3.9-cu nəticəyə əsaslanmaqla**

Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin və ixtisaslaşdırılmış müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi, qanunla əmək hüquqlarının həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirləri üçün nəzərdə tutulan vəsaitdən istifadə olunması məqsədilə müvafiq tədbirlərin tətbiq olunmasını;

**Azərbaycan Respublikasının Hesablama Palatası hesab edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlanmışdır, sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sistemi prinsiplərinə (vahidlik və müstəqillik) müvafiqdir.**

**Yuxarıda qeyd olunanları nəzərə alaraq, Qanun layihəsinin Azərbaycan Respublikasının Milli Məclisində müzakirə edilməsi tövsiyə olunur.**

**Rəy 04 noyabr 2021-ci il tarixdə Hesablama Palatasının Kollegiyasında müzakirə edilərək təsdiq edilmişdir.**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**HESABLAMA PALATASININ**
**SƏDRİ** **VÜQAR GÜLMƏMMƏDOV**